**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# UİLYAM QOLDİNQ YARADICILIĞINDA ROMAN-PRİTÇA

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Günay Şərafəddin qızı Baxşiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Cəlil Qərib oğlu Nağıyev**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Aynur Zakir qızı Sabitova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Leyli Əliheydər qızı Əliyeva**

filologiya üzrə fəlsəfə doktoru
**Xumar Vəliyəddin qızı Abdullayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ filologiya elmləri doktoru, professor
**Azad Yəhya oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: ____________ filologiya üzrə fəlsəfə doktoru, dosent
**İradə Nadir qızı Sərdarova**

Elmi seminarın sədri: ____________ filologiya elmləri doktoru, professor
**Şahin Həmid oğlu Xəlilli**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Nobel mükafatı laureatı Uilyam Cerald Qoldinqin yaradıcılığı müharibədən sonrakı dövr dünya ədəbiyyatında parlaq və özünəməxsus yer tutur. Müəllifin 1954-cü ildə çap olunmuş ilk romanı, "Milçəklər kralı" yaradıcısının adını təkcə İngiltərədə deyil, qısa vaxtda onun hüdudlarından çox-çox kənarlarda məşhurlaşdırdı. Lakin "Milçəklər kralı" romanı təkcə U.Qoldinq yaradıcılığının zirvəsi olmadı, eyni zamanda ədəbiyyatda müasir pritça fenomeninin etalonu, müasir pritçanın klassik nümunəsi kimi birmənalı şəkildə qəbul edildi. Müxtəlif tədqiqatlarda bu əsər XX əsr müəllif pritçasının ən parlaq nümunəsi kimi təhlil edilir.

Qoldinqin çoxşaxəli və geniş yaradıcılığı bütün dövrlərdə çoxsaylı tədqiqatların mövzusu olmuşdur. Dünya ədəbiyyatşünaslığında Qoldinq romanlarının sosial-tarixi və fəlsəfi aspektləri, Qoldinq romanlarının poetikası və problematikasının özəllikləri, yazıçının təhkiyə üslubunun qanunauyğunluqları və yaradıcılıq təkamülü öyrənilmiş, onun əsərlərindəki mifoloji, dini və ədəbi allüziyalara, müəllifin simvolikasına diqqət ayrılmışdır. Bütün bunlara baxmayaraq elmi dairələrdə, eləcə də oxucular arasında U.Qoldinq yaradıcılığına maraq azalmır. Qoldinq motivləri yeni əsərlərə, filmlərə, layihələrə hələ də qida verir.

Ədəbiyyatda mövqeyini "pritça ustası" kimi möhkəmləndirmiş yazıçının hər bir əsəri janr baxımından qeyri-adidir və xüsusi yanaşma tələb edir. Bundan başqa müasir ədəbiyyatşünaslığın pritça anlayışına yüklədiyi məna və eləcə də yazıçının özünün pritçanı necə qəbul etməsi müəllifin bir çox əsərlərində bir o qədər də aydın görünmür və bu məsələnin əlavə təhlilə ehtiyac var. Elə pritça anlayışının özü və xüsusən də hazırki tədqiqat işinin başlığında yer alan roman-pritça termininin ayrıca izah və təhlilə ehtiyacı var.

XX əsrdə ən qədim zamanlardan formalaşmış klassik pritça janrının əvvəlki ənənələrini fərqli formada dirçəldən yeni povest-pritça, pyes-pritça, roman-pritça kimi yeni janr transformasiyaları yarandı və dövrün F.Kafka, T.Mann B.Brext, A.Kamyu kimi ən görkəmli və nəhəng yazıçıları pritça janrına müraciət etdilər. XX

əsrdə roman-pritça janrının ən bənzərsiz nümunələrini isə məhz Uilyam Qoldinq yaratmışdır. Bu da məlumdur ki, XX əsr yazıçılarının, eləcə də U.Qoldinqin pritçaları klassik pritçalardan kifayət qədər fərqlənir ki, bu da janrın nəzəri baxımdan anlaşılmasını daha da çətinləşdirir. Məhz bu səbəbdən pritçanın tarixi inkişafına və formalaşmasına tədqiqatda ayrıca fəsil həsr edilmişdir.

Dissertasiyanın aktuallığı onunla əlaqədardır ki, o, XX əsrin ikinci yarısının ən böyük söz sənətkarlarından birinin yaradıcılığında janr spesifikliyi baxımından roman-pritça kimi qeyri-adi janrın ən əhəmiyyətli xüsusiyyətlərini araşdırır.

U.Qoldinq roman-pritçalarının janr özünəməxsusluqlarının ətraflı öyrənilməsi təkcə yazıçının əsərlərinin fəlsəfi məzmununu dərindən anlamağa, onun insanın təbiəti, tarixi təkamül yolları, maddinin və mənəvinin, dini və rasionalın əlaqələri haqqında, eləcə də müasir insanı narahat edən ən aktual problemlər haqqında mövqeyini başa düşməyə deyil, həm də XX əsr ədəbiyyatına xas şəkildə roman janrının məruz qaldığı dəyişikliklərin qanunauyğunluqlarını təsvir etməyə, bədii əsər formasının gizli imkanlarının açılmasına yardım edir.

U.Qoldinq yaradıcılığı onun 1954-cü ildə ilk romanının nəşrindən dərhal sonra həm oxucular, həm də tənqidçilər arasında böyük marağa səbəb oldu. 1950-ci illərin məqalələri və resenziyalarının ardınca 60-cı illərin sonlarına doğru Qoldinq yaradıcılığı haqqında ilk böyük həcmli tədqiqatlar işıq üzü gördü. Bunların içərisində ilk növbədə amerikalı ədəbiyyatşünas Ceyms Beykerin[1] tədqiqatını qeyd etmək lazımdır. Qoldinqin ilk biblioqrafı C.Beyker U.Qoldinq yaradıcılığı haqqında çoxsaylı məqalə, resenziya müəllifi olmaqla dəfələrlə onun əsərləri haqqında elmi işlərdən ibarət topluların redaktoru kimi çıxış etmişdir.

60-cı illərin ikinci yarısı U.Qoldinq yaradıcılığı haqqında monoqrafiya müəllifləri arasında ingilis tədqiqatçıları Piter Qrin, Frenk Kermod[2], Kliv Pemberton, Leyton Hodson, amerikalı

---

[1] Baker, J.R. William Golding. A Critical Study / J.R.Baker. – New York: St.Martin's Press, – 1965. – 106 p.

[2] Kermode, F. “The meaning of it all”: Conversation with W.Golding / F.Kermode. – New York: Twayne Publishers, – 1959. – 59 p.

tədqiqatçılar Bernard Dik[3], Samyuel Hayns[4], Bernard Oldsi və Stenli Vayntraubun[5] adlarını çəkmək olar.

1970-1980-ci illərdə Qoldinqin yaradıcılığı xüsusilə intensiv öyrənilmiş və onun erkən və sonrakı əsərlərini kompleks şəkildə təhlil edərək müasir ədəbiyyatda U.Qoldinqin yerini müəyyənləşdirməyə çalışan çoxsaylı tədqiqatlar işıq üzü görmüşdü. Bu tədqiqatlarda Qoldinq romanlarının janr özünəməxsusluğu və əsərlərinin problematikası mərkəzi yer tuturdu.

70-ci illərdə U.Qoldinq tədqiqatçıları arasında A.Flek[6], D.Anderson, T.Boyl, A.Conston, S.Medkalf[7], V.Tayger[8] xüsusilə seçilirdilər. 80-90-cı illərdə isə S.Boyd, N.Diken-Faller, C.Jindin, F.Redpas, M.Kinkid-Uiks və Y.Qreqor[9] Qoldinq haqqında ən maraqlı tədqiqatların müəllifləri oldular.

Rusiya ədəbiyyatşünaslığında da U.Qoldinq yaradıcılığı böyük maraqla izlənmişdir. Rus alimləri M.Zinde[10] və B.Mints[11] dissertasiyalarında Qoldinq yaradıcılığında janr problemini araşdırmışlar. Rusiyada Qoldinq yaradıcılığının digər tədqiqatçıları arasında Q.V.Anikin, N.P.Mixalskaya, V.İvaşeva, A.Elistratova, S.İ.Boldıreva, E.K.Melniçenko, A.A.Drujinina, A.Zverev, V.A.Skorodenko, T.Q.Strukova, A.Çameevin adlarını qeyd etmək olar.

---

[3] Dick, B. William Golding /B.Dick. – New York: Twayne Publishers, – 1967. – 119 p.

[4] Hynes, S. William Golding /S.Hynes. – New York; London: Columbia University Press, – 1964. – 93 p.

[5] Oldsey, B.S. The art of William Golding / B.S.Oldsey, S.Weintraub – New York: Harcourt, – 1965. – 178 p.

[6] Fleck, A.D. The Golding Bough: Aspects of Myth and Rituals in the Lord of the Flies // In On the Novel: A Present for Walter Allen on his 60th Birthday from His Friends and Colleagues, ed. B.S.Benedikz / A.D.Fleck. – London: Dent, – 1971. – 239 p.

[7] Medcalf, S. William Golding /S.Medcalf. – London: Longman Group, – 1975. – 45 p.

[8] Tiger, V. William Golding. The Dark Fields of Discovery / V.Tiger. – London: Colder&Boyars, – 1974. – 244 p.

[9] Kinkead-Weeks M. William Golding. A critical study / M.Kinkead-Weeks, I.Gregor – London: Faber&Faber, – 1967. – 257 p.

[10] Зинде, М.М. Творчество Уильяма Голдинга: К проблеме философско-аллегорического романа: /автореф. дис. канд.филол.наук. / – Москва, 1979. – 26 с.

[11] Минц, Б.А. Роман Уильяма Голдинга «Повелитель мух» как образец английской философско-аллегорической прозы: /автореф. дис. канд. филол. наук. / – Ленинград, 1988. –16 с.

Azərbaycan oxucusu U.Qoldinq yaradıcılığı ilə yalnız 2010-cu ildə tanış olmuşdur. U.Qoldinqin iki əsəri – "Milçəklər kralı"[12] və "Varislər" romanları görkəmli yazıçı və tərcüməçi Ramiz Abbaslı tərəfindən Azərbaycan dilinə tərcümə edilmiş və 2010-cu ildə "Uilyam Qoldinq. Seçilmiş əsərləri" kitabında Ramiz Abbaslının ön sözü ilə oxuculara təqdim edilmişdir. Sözügedən kitabda U.Qoldinqin Nobel nitqi də yer almışdır. Qeyd edək ki, bu dissertasiyada əsərin adının ilkin Azərbaycan tərcüməsindəki ("Milçəklər kralı") variantına üstünlük verilmişdir. Sonrakı illərdə roman "Milçəklər tanrısı" adı ilə də çap olunsa da, tədqiqatda Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə nəşr olunmuş rəsmi versiya əsas götürülmüşdür. Yazıçının digər "Oğru Martin", "Sərbəstdüşmə", "Şpil" ("Qüllə") kimi məşhur digər romanları isə təəssüf ki, hələ dilimizə tərcümə edilməmişdir.

2009-cu ildə Bakı dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasının professoru Ü.Bədəlbəyli "Müasir ingilis ədəbiyyatı oçerkləri"[13] adlı kitabında Uilyam Qoldinq yaradıcılığına da yer vermişdir. Qoldinqə həsr edilmiş oçerkində mərhum professor Ü.Bədəlbəyli yazıçının həm həyatı haqqında məlumat verir, həm də romanlarının təhlilinə yer ayırır.

U.Qoldinq yaradıcılığı X.Əliyevanın "XX əsr İngilis və Azərbaycan ədəbiyyatlarında ekzistensial problem (A.Merdok, U.Qoldinq, İ.Hüseynov və Y.Səmədoğlunun yaradıcılığı əsasında)"[14] (2010) adlı filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyasında da tədqiqat mövzusu olmuşdur. Dünya ədəbi-bədii və fəlsəfi fikrində ekzistensializmin fundamental tədqiqini başlıca məqsəd qoyan dissertasiyada U.Qoldinq yaradıcılığına yalnız bir yarımfəsil həsr edilmişdir. "Uilyam Qoldinqin "Milçəklər kralı" romanında Xeyir və Şər problemi" adlanan bu yarımfəsildə yazıçının "Milçəklər kralı" romanına ekzistensializmin təsiri araşdırılır, real aləmdə insan

---

[12] Qoldinq, U. Seçilmiş əsərləri / U.Qoldinq. – Bakı: Şərq-Qərb, – 2010. – 472 s.

[13] Бадалбейли, У.И. Очерки современной английской литературы / У.И.Бадалбейли. – Баку: Издательство Университета Азии, – 2009. – 133 с.

[14] Алиева, Х.И. Экзистенциальная проблема в английской и Азербайджанской литературе XX века (на основе творчества А.Мердок, У.Голдинга, И.Гусейнова и Ю.Самедоглу): / автореф. дис. доктора философии по филологии / – Баку, 2010. – 39 с.

varlığının absurdluğu problemi nəzərdən keçirilir.

Y.Abdullayevanın "Böyük Britaniya postmodernist romanının tipologiyası və poetikası"[15] (2023) adlı elmlər doktorluğu dissertasiyasında U.Qoldinq yaradıcılığı geniş tədqiqata cəlb edilmişdir. Tədqiqatın II fəslinin "Böyük Britaniya postmodernist romanının ilkin ideya-konseptual zəmini" adlanan ilk yarımfəslinin bir bölümü Qoldinq yaradıcılığında ingilis fəlsəfi roman ənənələrinin "açıq əsər"lə simbiozunun araşdırılmasına həsr edilmişdir. Bu bölümdə Y.Abdullayeva Qoldinqin intellektual romanlarında "Açıq əsər" meyarlarına uyğun xüsusiyyətləri təhlil edərək, bu xüsusiyyətlər ilə yazıçının romanlarında təfsir imkanlarını genişləndirməyə nail olduğu qənaətinə gəlmişdir[16]. Sözügedən dissertasiyanın II fəslinin "Böyük Britaniya postmodernist romanlarında janr polifonizmi" adlı üçüncü yarımfəslinin digər bir bölümü isə məhz postmodernist roman təhkiyəsində alleqoriya və parabola əsasında formalaşan fəal janr növü kimi roman-pritçanın təhlilinə həsr edilmişdir. Bu hissədə Böyük Britaniya postmodernist ədəbiyyatında roman-pritçanın ən uğurlu nümunələri arasında U.Qoldinqin "Milçəklər kralı", onun mətnində aşkarlanan parodiklik, kompozisiya açıqlığı, alleqoriya və parabola, rəmzilik, qroteks və oyun, intertekstuallıq, ekzistensiallıq elementləri təhlil edilir[17].

Lakin qeyd etməliyik ki, bu dissertasiyalarda U.Qoldinqin bütün yaradıcılığı və onun roman-pritçalarının xüsusiyyətləri ayrıca tədqiqata cəlb edilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Uilyam Qoldinqin mövzu ilə əlaqədar və mövzuya yaxın məzmunda olan bütün əsərlərinin nəzərdən keçirilərək öyrənilməsi tədqiqat işinin obyektini, onların arasında roman-pritça janrında olan seçilmiş əsərlərin janr özünəməxsusluqlarının öyrənilməsi isə predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi U.Qoldinq yaradıcılığında roman-pritça janrının aparıcı və spesifik xüsusiyyətlərinin, özünəməxsusluqlarının müəyyənləşdirilməsidir.

---

[15] Abdullayeva, Y.A. Böyük Britaniya postmodernist romanının tipologiyası və poetikası: / filologiya üzrə elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2023. – 60 s.
[16] Yenə orada, s.30-31
[17] Yenə orada, s.36

Bu elmi məqsədin gerçəkləşdirilməsi üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulmuşdur:

- Pritça janrının tarixi inkişafını və XX əsr ədəbiyyatına qədər janrın formalaşma xüsusiyyətlərinin izlənilməsi;
- Müasir pritçanın əsas janr əlamətlərinin müəyyənləşdirilməsi, eləcə də XX əsr ədəbiyyatında roman-pritça janrının klassik pritçadan fərqinin araşdırılması;
- U.Qoldinq roman-pritçalarının təhkiyə üslubunun özəlliklərinin, obrazlar sisteminin, süjet-kompozisiya xüsusiyyətlərinin təhlili;
- U.Qoldinqin roman-pritça janrında olan əsərlərinin problematikasının, müəllifin əsas simvollarının, roman-pritçalardakı mifoloji və ədəbi allüziyaların təhlili;
- Yazıçının pritça başlanğıclı və roman-pritçalarındakı mövzularla səsləşən, eləcə də pritça janrı haqqında nəzəri fikirlərini ifadə etdiyi digər əsərlərinin qısa icmalı;
- U.Qoldinqin yaradıcılıq üslubunun inkişafının izlənilməsi.

**Tədqiqat metodları.** Tədqiqatın əsasını müqayisəli-tarixi, analitik, xronoloji metodlar təşkil edir. Müqayisəli-tarixi metod tədqiqata cəlb olunmuş əsərlərin, onların yarandığı konkret tarixi şəraitə uyğun və bir-birləri ilə qarşılıqlı əlaqədə araşdırılmasını nəzərdə tutur.

Xronoloji metodun tətbiqi nəticəsində tədqiqata cəlb edilmiş əsərlərin ardıcıllığına riayət olunmaqla yazıçının bədii yaradıcılığındakı təkamül prosesi izlənilmiş və müvafiq nəticələr çıxarılmışdır. Müqayisə metodunun köməyi ilə yazıçının və onun müasirləri, eləcə də sələfləri arasındakı bənzər və fərqli cəhətlər aşkar edilərək onların elmi şərhi verilmişdir. İstifadə olunmuş mənbələrə analitik-tənqidi metodla yanaşılmış, tədqiqatın nəzəri aspektlərini öyrənərkən roman-pritça janrı və Uilyam Qoldinq yaradıcılığı tədqiqatçılarının mülahizələri əsas götürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Dünya ədəbiyyatında qədim ənənəsi olan və yığcamlığı, lakonikliyi, didaktik və ibrətamiz xarakteri ilə müəyyən olunan pritça janrı bütün dövrlərdə transformasiyalara məruz qalaraq yeni bədii keyfiyyətlər qazanır və XX əsrdə xüsusilə aktuallaşır;

2. XX əsrin yeni düşüncəsinin pritçası xeyli dərəcədə dəyişikliyə məruz qalsa da, bir sıra sabit xüsusiyyətlərini qoruyub saxlayır. Bunlar ikiplanlılıq, fəlsəfilik və əsərin müəyyən bir ideyanın sübutu kimi qurulmasıdır. Eləcə də bu dövrdə pritça roman, povest, pyes kimi janrların tərkibinə daxil olaraq roman-pritça, povest-pritça, pyes-pritça kimi müxtəlif janr modellərinin sintezini formalaşdırır;

3. Görkəmli ingilis yazıçısı U.Qoldinq XX əsr müəllif pritçasının klassik nümunələrinin, roman-pritçaların müəllifidir və yazıçı özü əsərlərinin janrının "pritça" kimi təyin edərək, özünün pritça anlayışını bu janra gətirmişdir;

4. U.Qoldinq özünün çoxşaxəli yaradıcılığında klassik roman-pritçalarla yanaşı pritça başlanğıclı və roman-pritçalarındakı mövzularla səsləşən başqa əsərlər də yaratmışdır: "Əqrəb-Tanrı" povest-pritçası və "Dəniz trilogiyası" belə əsərlərdəndir;

5. U.Qoldinq yaradıcılığında roman-pritça əsərdən əsərə dəyişən və inkişaf edən proses olmaqla xüsusi Qoldinq üslubunu təşkil edir və daimi məzmun və struktur xüsusiyyətlərini özündə birləşdirir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, dissertasiyada U.Qoldinq yaradıcılığında əsas yer tutan roman-pritça janrı, bu janrın spesifik xüsusiyyətləri və janrın müasir romanın uğradığı dəyişikliklərdə təsiri tədqiq edilir. XX əsr ədəbiyyatında xüsusi yer tutan roman-pritça kimi mürəkkəb bir janrın xüsusiyyətlərinin müəyyən edilməsi klassik pritça janrının formalaşması və XX əsrə qədər keçdiyi yolun izlənilməsi zərurətini yaratdığı üçün dissertasiyada buna xüsusi diqqət ayrılır. Eyni zamanda dissertasiyada roman-pritça janrının özünəməxsus əlamətlərinin, bu janrı klassik pritçadan fərqləndirən əsas xüsusiyyətlərin ümumiləşdirilməsi aparılır. Eləcə də U.Qoldinq roman-pritçaları ilə Azərbaycan ədəbiyyatı nümayəndələrinin yaradıcılıqları arasında mövzu və məzmun əlaqələrinin axtarışları da bu elmi tədqiqat işinin yeniliklərindən sayıla bilər.

U.Qoldinqin "Oğru Martin", "Sərbəstdüşmə", "Şpil" ("Qüllə"), "Piramida" kimi roman-pritçalarının simvolikası, əsərlərdə işlənən mifoloji və ədəbi allüziyalar, yazıçının bu romanlarda qoyduğu

sosial-tarixi, fəlsəfi problemlər araşdırılır və Qoldinq roman-pritçalarını digər müəllif pritçalarından fərqləndirən əsas xüsusiyyətlər haqqında maraqlı nəticələr əldə olunur. U.Qoldinqin təhkiyə üslubunun inkişafını aydın təsəvvür etmək üçün onun yaradıcılığı xronoloji ardıcıllıqla izlənilir, tərkibində pritça elementləri olan, müəllifin roman-pritçalarındakı mövzularla səsləşən digər əsərləri, eləcə də yazıçının ədəbiyyat haqqında, pritça janrı haqqında nəzəri fikirlərini qeydə aldığı esse və məqalələri, müsahibələri də diqqətdən kənarda qalmamışdır. Bütün bunlar dissertasiyada Qoldinq yaradıcılığını bütövlükdə əhatə etməyə, Qoldinq roman-pritçalarının müasir ədəbiyyatda tutduğu yeri müəyyən etməyə imkan vermişdir.

Beləliklə, tədqiqat işinin elmi yeniliyi müasir müəllif pritçasının və U.Qoldinq yaradıcılığının əsas yaradıcılıq prinsiplərinin müəyyən olunmasıdır.

Yuxarıda göstərilənlər dissertasiya işinin elmi yeniliyini şərtləndirir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyətini ilk növbədə bu dissertasiyanın Uilyam Qoldinqin bədii irsinə, xüsusilə onun pritça janrında yazılmış əsərlərinə Azərbaycanda həsr edilmiş ilk kompleks və sistemli tədqiqat olması şərtləndirir. Qoldinqin yaradıcılığında janr transformasiyası, simvolizm və alleqoriya, insan təbiəti, tarixi təkamül, insanın daxili dilemması və cəmiyyətlə qarşıdurma kimi mövzuların ətraflı təhlili həm yazıçının bədii irsinin öyrənilməsi baxımından, həm də Azərbaycan ədəbiyyatşünaslığında pritça janrının özəlliklərini və təkamül istiqamətlərini araşdırmaq baxımından mühüm nəzəri əhəmiyyətə malikdir.

Nəhayət, dissertasiya işi Qoldinq roman-pritçalarını mifoloji, Bibliya və mədəni allüziyalar kontekstində sistemli təhlil edən tədqiqat işi kimi yazıçının çoxşaxəli bədii irsini araşdıracaq yeni nəsil tədqiqatlar üçün faydalı nəzəri mənbə rolunu oynaya bilər.

Beləliklə, tədqiqat həm janr təhlili baxımından, həm də müasir ədəbiyyatda və Qoldinq yaradıcılığında insan və mənəviyyat problemi, insanın mövcudluğunun mənası məsələsinin bədii ifadə

özünəməxsusluqlarının öyrənilməsi baxımından nəzəri əhəmiyyət kəsb edir.

Dissertasiyanın təcrübi əhəmiyyəti ondan ibarətdir ki, onun materiallarından və nəticələrindən bu sahədə gələcəkdə aparılacaq elmi tədqiqat işlərində, Uilyam Qoldinq yaradıcılığı, eləcə də XX əsr roman-pritça janrına aid dərslik və monoqrafiyaların yazılmasında, xüsusi kursların hazırlanmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri respublika və beynəlxalq miqyaslı elmi konfrans və simpoziumlarda məruzə edilmiş, həmin konfrans və simpoziumların materiallarından ibarət toplularda, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi ölkə və xarici elmi jurnallarında dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi – 8 səhifə, 14779 işarə, I fəsil – 36 səhifə, 71388 işarə, II fəsil – 40 səhifə, 79923 işarə, III fəsil – 47 səhifə, 93464 işarə, Nəticə hissəsi – 5 səhifə, 9325 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 268879 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, mövzunun işlənmə səviyyəsi, tədqiqatın elmi yeniliyi, metodologiyası, nəzəri və təcrübi əhəmiyyəti əsaslandırılır, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın aprobasiyası və quruluşu haqqında məlumat təqdim edilir.

Dissertasiya işinin **"Dünya ədəbiyyatında roman-pritça və Uilyam Qoldinq"** adlanan **I fəsli** iki paraqrafdan ibarətdir. ***"Pritça janrının yaranma tarixi və təkamülü"*** adlanan birinci paraqraf pritçanın janr kimi keçdiyi inkişaf yolunun təhlilinə həsr edilmişdir.

Pritça tərkibində alleqorik formada dini və ya mənəvi öyüd-nəsihət olan ibrətamiz xarakterli, kiçik həcmli əsərdir. Dünya ədəbiyyatında qədim ənənəsi olan pritça ədəbi termini və anlayışına müxtəlif təriflər verilmişdir.

S.S.Averintsev pritçanı təmsilə yaxın didaktik-alleqorik janr kimi dəyərləndirir. Onun fikrincə, pritça müstəqil forma deyil və yalnız müəyyən kontekstdə meydana gəlir. Bu səbəbdən pritçada inkişaf edən süjet xətti olmaya bilər və bəzən adi müqayisəyə qədər qısaldıla bilər. Buna baxmayaraq, pritça simvolik dolğunluğunu qoruyur və "*dərin dini və mənəvi müdrikliyə meyilli*" olur [18].

V.Brettşnayder pritçanın üç əsas janr əlamətini göstərir. Bu janr əlamətləri arasında müəllif pritçadakı şərhlərin alleqorik formada və eyhamlı olmasını, konkretləşdirməni və bəhs olunan konkret hadisənin oxucu tərəfindən nümunə kimi qiymətləndirilməsi və müəllifin nəzərdə tutduğu nəticənin çıxarılmasını qeyd edir [19].

Janrın mahiyyətini anlamaq üçün "pritça" və "parabola" terminlərinin mənşəyini araşdırmaq vacibdir. Qərbi Avropada parabola, yunan dilində "müqayisə, illüstrasiya, analogiya" mənasını verən **παραβολή** sözündən götürülmüş və didaktik hekayələr üçün istifadə olunur. Termin Avropa dillərinə (parable, parabola və s.) yunan formasında keçmişdir. Rus ədəbiyyatşünaslığında isə bu termin "pritça" sözü ilə əvəz edilir.

E.K.Romodanovskayanın araşdırmalarına görə, slavyan dillərində "pritça" termini çoxmənalıdır və "hekayət", "apoloq", "müdrik söz" kimi müxtəlif mənalar ifadə edir. Lakin ümumi olaraq "hadisə" mənası hər yerdə qəbul edilmişdir[20].

Pritça bədii janr olaraq qədim dövrlərdən bu günə qədər mövcud olmuş və dünya ədəbiyyatında xüsusi yer tutmuşdur. Bibliyada və xüsusilə İncil pritçalarında təzahür edən bu janrın qədim nümunələri zəngin dini və mədəni təcrübələrə əsaslanır.

---

[18] Аверинцев, С.С. Притча // Краткая литературная энциклопедия: [Электронный ресурс] / В 9 т. – М.: Сов. Энцикл., 1962-1978. URL: http://feb-web.ru/feb/kle/kle-abc/default.asp

[19] Евтодиева, Н.В. Литературный жанр «Притча» в творчестве Германа Гессе // – Москва: Вестник МГЛУ, – 2013. Выпуск 4 [664], – с.71.

[20] Ромодановская, Е. К. Специфика жанра притчи в древнерусской литературе // – Петрозаводск: Проблемы исторической поэтики, –1998. Вып.5, – с.76.

İncildəki pritçalar həm mənəvi, həm də əxlaqi dəyərləri sadə dillə ifadə edərək insan həyatının dərin mənalarını izah etməklə yanaşı, həyati prinsipləri aşılayırdı. Bu baxımdan, İsa Məsihin pritçaları janrın bədii-dini mahiyyətinin zirvəsi hesab olunur[21].

Pritça janrı yalnız Qədim Yəhudi və Xristian dünyası ilə məhdudlaşmamış, həm də Qədim Şərq, Çin və Hindistan ədəbiyyatında geniş yayılmışdır. Məsələn, Qədim Misir didaktikası "Ptahhotepin nəsihətləri" kimi əsərlərdə öz əksini tapmışdır.[22].

Pritçanın tarixi inkişafı onun məzmun və forma baxımından təkamül etdiyini göstərir. Mifologiya ilə əlaqəsi olan pritça janrı, ilkin mərhələlərdə sinkretik xüsusiyyətlər daşıyırdı[23]. Bununla belə, zamanla pritça dini təfəkkürdən ayrılaraq, daha çox insana və onun həyat təcrübəsinə yönəlmiş məzmun qazandı. Orta əsrlərdə pritçanın açıq didaktik və əxlaqi mahiyyəti dominant olsa da, İntibah dövrü ilə birlikdə janr daha dünyəvi forma aldı. İnsan təfəkkürünün xristianlıq tərəfindən qurulmuş sərt dini doqmalardan qurtulması bu dövrdən başlayır və pritçanın əxlaqi-didaktik məzmununa təsir edir[24].

XIX-XX əsrlərdə pritça həyatın mənasını dərk etməyə yönəlmiş və müxtəlif bədii formalarda, o cümlədən pyes-pritçalar, hekayə-pritçalar və roman-pritçalar şəklində özünü göstərmişdir. Edqar Allan Ponun "Sükut – Pritça" (1837) əsəri bu dövrün diqqətəlayiq nümunələrindəndir.

***"XX əsr dünya ədəbiyyatında roman-pritça"*** adlanan ikinci paraqrafda XX əsrdə pritçanın uğradığı dəyişikliklər nəzərdən keçirilmiş və yeni dövr pritçasının əsas xüsusiyyətləri müəyyən edilmişdir.

İnsan həyatında dinin əhəmiyyətinin dəyişməsi və elmi kəşflərdən məyusluq, incəsənətin insan həyatında roluna yenidən

---

[21] Шпетный, К.И. Притча как религиозно-художественный дискурс // – Москва: Вестник МГЛУ, – 2014. Выпуск 18 [704], – с.109-122.

[22] Nağıyev, C. Qədim Şərq ədəbiyyatı tarixi / C.Nağıyev. – Bakı: "Asiya" nəşriyyatı, – 2009. – 560 s.

[23] Мелетинскнй, Е.М. Первобытные истоки словесного искусства// Ранние формы искусства. Сборник статей / Е.М.Мелетинский. – Москва: Искусство, – 1972. – 479 с.

[24]Эпштейн, М.Н. Парадоксы новизны: О литературном развитии XIX -XX веков / М.Н.Эпштейн. – Москва: Советский писатель, – 1988. – 416 с.

baxılmasına səbəb oldu, əbədi suallar – xeyir və şər, yaşamanın mənası kimi mövzuları ön plana çıxardı. Pritça, ekzistensializm fəlsəfəsi ilə sıx əlaqəli olaraq, bu suallara cavab axtarırdı. Müasir ədəbiyyat formaları olan pritça və mif, XX əsrdə yazıçıların həyatın bədbinliyini kompensasiya etməyə çalışdıqlarını göstərirdi.

Terminologiyanın və janr modifikasiyalarının sərhədsizliyinə baxmayaraq, müasir pritçanın əsas xüsusiyyətləri arasında ikiplanlılıq, fəlsəfi dərinlik və universal problemləri təhlil etmə qabiliyyəti demək olar ki, hər zaman özünü göstərir.

XX əsrdə klassik pritçalara xas iki planın nisbəti dəyişir, fabulanın rolu əhəmiyyətli dərəcədə artır. Klassik pritçaya xas olmayan təsvirilik və psixolojilik yaranır. Müasir pritçalar realist süjetə malik olur ki, bu da onları öz-özlüyündə hadisələr planında interpretasiya etməyə imkan verir. Məsələn, A.Kamyunun "Taun" romanında bəzi oxucular Oran sakinlərinin taunla mübarizəsini cəsarət və qorxmazlıq nümayişi kimi görür, digərləri isə romanda keçmiş yüzilliyin ortalarında Avropada baş vermiş işğallara bənzər "çəhrayı taun" analoqunu tapırlar[25].

Struktur dəyişikliklərinə baxmayaraq, pritçanın mövzusu onun əsas fərqləndirici xüsusiyyətlərindən biri olaraq qalır. Pritça yaradıcılarını ümumbəşəri əbədi problemlər narahat edir. Beləliklə, fəlsəfi dərinlik janrın ayrılmaz keyfiyyətlərindən biridir.

Pritçanın digər mühüm xüsusiyyətlərindən biri də bədii əsərin müəyyən fəlsəfi ideyanın sübutu kimi qurulmasıdır. Bizim tərəfimizdən fərqləndirilən xüsusiyyətlər – ikiplanlılıq, fəlsəfilik və əsərin müəyyən ideyanın təsdiqi kimi qurulması – pritça başlanğıclı əsərlər üçün mütləq və minimal zəruri olan şərtlərdir.

Pritça poetikası təkrarlar, rəmzlər, folklor və mifologiyaya, həmçinin müxtəlif dövrlərin ədəbiyyat əsərlərinin allüziyalarına müraciət etməyi ehtiva edir. Prirtça janrına aid terminologiya qarışıqlığı Uilyam Qoldinqin yaradıcılığında da mövcuddur. Tənqidçilər, demək olar ki, yekdilliklə yazıçını "pritçalar ustası" adlandırırlar. Müharibədən sonrakı dövrdə ingilis və Qərbi Avropa ədəbiyyatında Qoldinq nəsri XX əsr pritçasının "həqiqi

[25]Камю, А. Падение: повесть / А. Камю. – Москва: АСТ, – 2009. – с.219.

ensiklopediyası”[26] kimi təqdim edilir. Lakin, pritçadan əlavə, “mif”[27] və “parabola” terminlərindən də istifadə edilir.

Yazıçı özü pritça janrına olan münasibətini Amerika kolleclərinin tələbələrinə oxuduğu mühazirəsində əks etdirmişdir. Həmin mühazirə proqram olaraq qəbul edilmiş və yazıçı haqqında yazılan məqalə və tədqiqatlarda “Pritça”dan tez-tez sitatlar gətirilir. Qoldinq burada təkcə öz debüt romanını təhlil etməklə yanaşı, həm də pritça janrına müraciət etməsinin səbəblərini açıqlayır, digər “pritça yazanların” adlarını qeyd edir və bu ədəbi formanın bəzi xüsusiyyətlərini fərqləndirir. Onun fikrincə, pritça, “*həqiqətin fərqli deyiliş vasitəsi ilə təqdim edilməsi metodu*”dur[28]. O, mənəviyyatçılığı pritçanın ayrılmaz bir keyfiyyəti hesab edir. Eyni zamanda, əxlaq dərsi aşkar olmalı deyil, çünki “*aşkar didaktika pritçada əks göstərişlidir*”[29].

XX əsrdə yazıçıların yeni forma axtarışlarının nəticəsi olaraq pritça janrı əhəmiyyətli dəyişikliklərə məruz qalsa da, bəzi sabit xüsusiyyətlərini qoruyub saxladı. İkiplanlılıq, fəlsəfilik, əsərin bir ideya üzərində qurulması kimi xüsusiyyətlər XX əsr müəllif pritçalarında özünü göstərir. Bu proseslər XX əsrdə Azərbaycan ədəbiyyatına da təsir göstərmişdir. İctimai-siyasi hadisələrin yazıçılardan tələb etdiyi yeni mövzu və forma axtarışları janrlar arasında sərhədlərin silinməsini qaçılmaz etmişdir. Bu da ədəbiyyatımızda pritça məzmunlu və üslublu, mətnə və ideyaya pritça yanaşması gətirən maraqlı bədii nümunələrin yaranmasına səbəb olmuşdur.

**“Uilyam Qoldinq əsərlərinin problematikası”** adlanan **II fəsil** iki paraqrafdan ibarətdir. ***“Uilyam Qoldinqin bədii və publisistik yaradıcılığı”*** adlanan birinci paraqrafda böyük ingilis yazıçısı, Nobel mükafatı laureatı Uilyam Qoldinq yaradıcılığının

---

[26] Можаева, А.Б. Художественные ориентиры зарубежной литературы XX века / А.Б.Можаева. – Москва: Имли РАН, – 2002. –с.246

[27] Dickson, L.L. The Modern Allegories of William Golding /L.L.Dickson. – Tampa: Tampa univ. Press, – 1991. – p.3

[28] Голдинг, У. Притчи. Эссе. Пер. А. Глебовской // Собрание сочинений:[в 4 томах] / У.Голдинг. – Санкт-Петербург: Симпозиум, – т. 1. – 1999. – с.465.

[29]Голдинг, У. Притчи. Эссе. Пер. А. Глебовской // Собрание сочинений: [в 4 томах] / У.Голдинг. – Санкт-Петербург: Симпозиум, – т. 1. – 1999. – с.474.

dövrləşdirilməsi ilə bağlı məsələ işıqlandırılır və amerikalı tədqiqatçı Diksonun qeyd etdiyi kimi romanları *"mənəvi prinsiplərinin ifadəsi"*[30] olan yazıçının yaradıcılıq yoluna nəzər salınır.

Bu bölümdə U.Qoldinq irsi müxtəlif mövzu, süjet xətləri, obraz və simvolların orqanik olaraq birləşməsindən ibarət bir bütün şəklində həyat yolu ilə əlaqəli şəkildə nəzərdən keçirilir.

Uilyam Qoldinqin bütün yaradıcılığını əsərlərinin poetikası və üslubundakı dəyişikliklərə əsaslanmaqla iki mərhələyə bölmək yazıçının ədəbi irsinin dövrləşdirilməsi probleminə mümkün yanaşma variantlarından biri kimi təqdim olunur. Daha sonra gələcək dünya bestselleri müəllifinin uşaqlıq illəri, ilk maraqlı sözlər axtarışı, kollec illərindəki maraq dairəsi işıqlandırılır.

U.Qoldinqin ədəbiyyata olan hədsiz marağı 1934-cü ildə ilk şeirlər toplusunun nəşri ilə nəticələnir. Tənqidçi Klayv Pemberton bu şeirləri həm problematika baxımından, həm də texnika baxımından yetişməmiş hesab etsə də, onu da qeyd edirdi ki, "*sonrakı nəsr əsərlərində aşkar görünən poetik istedadın əlamətləri*" artıq onlarda hiss olunurdu[31]. İlk şeirlərinə tənqidçilərin və yazıçının özünün yanaşmasının ardınca U.Qoldinqin ilk pedaqoji təcrübəsi, dramaturq və teatr quruculuğu fəaliyəti, daha sonra isə həyatında silinməz iz buraxan və onun yaradıcılığının başlıca məqsədini müəyyən edən hərbi-dəniz donanması tərkibində II Dünya müharibəsindəki iştirakı paraqrafda yer alır.

"*Heyvanlar arasında ən təhlükəli olan*"[32] insanı öyrənməyi qarşısına başlıca məqsəd qoyan Uilyam Qoldinqin bu məqsədini gerçəkləşdirdiyi ilk romanı "Milçəklər kralı" ona dünya şöhrəti qazandırır. R.M.Ballantaynın "Mərcan adası" (Ballantyne R.M. The Coral Island, 1858) adlı uşaq və böyüklərin sevdiyi macəra romanını xatırladan, təsvirinə görə isə insanların daxili əhval-ruhiyyəsini əks etdirən bu əsər diqqəti cəlb etməyə bilməzdi.

---

[30]Dickson, L.L. The Modern Allegories of William Golding / L.L.Dickson. – Tampa: Tampa univ. Press, – 1991. – p.134.

[31]Pemberton, C. William Golding / C.Pemberton. – London: Longmans, Green&co, – 1969. – p.6.

[32]Голдинг, У. Выступление на встрече писателей Европы в Ленинграде // – Москва: Иностранная литература, – 1963. №11. – c.225.

Üslubuna və obrazlar sisteminə görə U.Qoldinqin növbəti möhtəşəm əsərləri "Varislər" və "Oğru Martin" romanlarının ardınca yazıçı 1956-cı ildə "Nə vaxtsa, heç vaxt" adlı fantastik povestlər toplusunda "Fövqəladə səfir" (Envoy Extraordinary, 1956) povestini dərc etdirir. Povest XX əsrin sonunda özünü göstərən texniki tərəqqi məsələsinə toxunur.

1960-cı ildə "Sərbəstdüşmə" romanı ilə yanaşı Qoldinq bir neçə novellasını dərc edir. Onlar arasında qadın qəhrəmanın adı ilə adlandırılmış "Miss Palkinhorn" novellası bir çox tənqidçilərin rəylərinə əsasən Qoldinq nəsrinin mükəmməl nümunəsidir. Novellada baş verən hadisələrin yerinin kimsəsiz ada deyil, İngiltərə olmasına və əhvalatın baş verdiyi dövrün qədim dövr deyil, XX əsr olmasına baxmayaraq, Qoldinq burada öz ədəbi istedadını bütün gözəlliyi ilə nümayiş etdirmişdir.

Tənqidçilər tərəfindən çox mürəkkəb simvolikası, çoxsəviyyəli obraz sistemi və dərin mənası olan əsər kimi qəbul edilən "Şpil" romanından bir il sonra, 1965-ci ildə Qoldinq "İsti qapılar" adlı tənqidi mühazirələr, məqalələr, esse və resenziyalardan ibarət toplusunu dərc edir.

1971-ci ilin oktyabr ayında yazıçının "kiçik nəsr toplusu"na daxil olan üç kiçik povest – "Tanrı-əqrəb", "Klonk-Klonk" və "Fövqəladə səfir" əsərlərinin nəşrindən sonra müəllifin yaradıcılığının səkkizillik sükut dövrü gəlir. Bu sükut əvvəl-əvvəl təəccübə səbəb oldu, sonra isə 1971-ci ildə dərc edilmiş toplunun sonuncu olmasına görə qorxuya səbəb oldu.

Uzanmış fasilə 1979-cu ilin sonunda tamamlandı, həmin ildə Ceyms Teyt Blek mükafatını qazanmış "Görünən zülmət" işıq üzü gördü. Qoldinqin yeni romanı yazıçının ən güclü və dərin əsərlərindən biri oldu. Həmin dövrün Qoldinq nəsrinə Semuel Hayns tərəfindən verilmiş xarakteristika da maraqlıdır: "*Qoldinqin moralist olmasına baxmayaraq, o "mənəviyyat yaradıcısı ("moral maker") deyil, və onun romanları Ezopun təmsil sırasına deyil, bizim yüzilliyimizin ən əsas simvolika ilə dolu romanları – Kamyu və Kafkanın romanları sırasına aiddir*"[33].

[33]Hynes, S. William Golding / S.Hynes. – London: Columbia Univ. Press, – 1962. – p.19

1982-ci ildə Qoldinq "Hərəkət edən hədəf" adlı ikinci esse toplusunu dərc etdirir. Bir ildən sonra, yazıçı ədəbiyyat sahəsində nailiyyətlərinə görə *"realizmin parlaq işıltısı altında mifin müxtəlifliyi və universallığı ilə birlikdə müasir insanın yaşadığı şərait haqqında təsəvvür yaratmağa imkan verən romanlarına"*[34] görə Nobel mükafatı ilə təltif olunur.

1985-ci ildə Qoldinqin yol qeydləri olan "Misir gündəliyi" adlı kitabı işıq üzünü görür. Ümumiyyətlə, Qoldinqin qədim Misir mədəniyyətinə olan marağı onun həyatı boyu izlənilir. Misir haqqında yazıçı hələ "İsti qapılar" toplusunda "Misir, gördüyüm kimi" məqaləsində fikir bildirir. O, yazırdı: *"faktiki olaraq, mən özünəməxsus olan mənəvi praqmatizm və tərəddüd edən inamlı qədim misirliyəm"*[35]. Beləliklə, "Misir gündəliyi" Qoldinqin qədim dünyanı necə qəbul etdiyini göstərən, uzun illər boyu onun yaradıcılıq fantaziyasını qidalandıran yekun əsər oldu.

1993-cü ilin yanvar ayında o, yeni romanı üzərində işləməyə başlayır, lakin bitirməyə fürsəti olmur: 1993-cü il iyunun 19-da ser Uilyam Cerald Qoldinq infarktdan dünyasını dəyişir. Beş gündən sonra yazıçını Solsberi yaxınlığında Bauerçok adlı yerdə dəfn etdilər.

***"Uilyam Qoldinqin "Əqrəb-Tanrı" povest-pritçası və "Dəniz trilogiyası"*** adlı ikinci paraqrafda mövzu baxımından Qoldinqin roman-pritçaları ilə səsləşən "Əqrəb Tanrı" povest-pritçası və özündə pritça əlamətlərini daşıyan "Dəniz trilogiyası" tədqiqata cəlb olunmuşdur.

U.Qoldinq "Əqrəb-Tanrı" (1971) fəlsəfi povest-pritçasının yaradılması üçün koordinatlar toru qismində Qədim Misir çarlığının reallığını götürür və Misir povestdə müəyyən məkan-zaman və mədəniyyət kontiniumu kimi ortaya çıxır. Misirlilərin təfəkkürü, dini, mədəniyyəti və fəlsəfəsini yaxşı təsəvvür etməklə U.Qoldinq praktiki olaraq həmin xronotopun bütün əsas şərtlərinə riayət edir, onları öz dünyagörüşü fəlsəfəsinin ifadəsi üçün təkan nöqtələrinə transformasiya edir.

---

[34]Нобелевская премия по литературе: лауреаты 1901-2001 / сост. Е.Б.Белодубровский. – Санкт-Петербург: Изд-кий дом СПБГУ, – 2003. –с.363-364

[35]Голдинг, У. Горячие врата/ У.Голдинг. – Москва: Художественная литература, – 1975. – с.75

Mərkəzində Misir dövlətinin gənc Şahzadəsinin çoxəsrlik dini ənənələrə müqaviməti süjeti dayanan bu əsərdə Qoldinq həmişə olduğu kimi hadisələrin inkişaf etdiyi səhnə qismində təcrid olunmuş məkanı – Nil mənsəbində bütün dünyadan klassik maneə - su səddi ilə ayrılan böyük olmayan torpaq sahəsini seçir. Hələ qədimi mifoloji-semantik sistemlərdə Çay real və irreal dünyaları ayıran məkan mifologemasına çevrilmişdi. U.Qoldinq arxaik insanın dünyagörüşünün bu aspektini dəqiqliyi ilə əks etdirir: Yüksək Ev çarlığı həqiqətən onun sakinləri tərəfindən real mövcud olan məkan kimi qiymətləndirilir, lakin, bu zaman xaricdə olan dünya – qeyri-mövcudluğun ilkin yaranmış xaosudur ki, burada hətta səma tağı belə yoxdur, belə ki, onu saxlaya biləcək nəsnə yoxdur: *"Sən bir anlıq təsəvvür et ki, səma tağı o qədər nəhəngdir ki, o biri torpaqları da örtür. Hə! Sadəcə fikirləş, onun çəkisi nə qədər olmalıdır!"*[36]

Çay mifologeması Yüksək Ev dünyasını və Boşboğaz dünyasını ayırmaqla coğrafi deyil, daha çox dünya görüşü sərhədi funksiyasını yerinə yetirir və "zamanın dönməz axarının rəmzi" olmaqla təkcə məkan deyil, həm də zaman sərhəddidir.

Zaman və məkanda uzaqlara sovrulmuş şüurun güzgü kimi inikası əsərin pritça plastını təşkil edir. Beləliklə, Çay şüurun iki növünün qovuşmuş olduğu sərhədə çevrilir.

Qoldinq yaradıcılığına xas olan xüsusiyyətlərdən biri də janrların, üslub və istiqamətlərin qarışıq rəngarəngliyidir. Bu sinkretizmin ən parlaq nümunələrindən biri "Dünyanın o tərəfinə" dəniz trilogiyasıdır.

Dəniz terminologiyası və dəniz təbiətinin təsvirləri ilə zəngin olmaqla "Dünyanın o tərəfinə" trilogiyası dərhal tənqidçilər tərəfindən klassik dəniz romanı janrına aid edilsə də, Qoldinq istər dəniz jarqonunun istifadəsində, istər gəminin və gəmi kapitanı obrazının yaradılmasında əhəmiyyətli dərəcədə klassik dəniz romanı üslubundan kənara çıxır. Yəni Qoldinqin dəniz trilogiyası onun klassik dəniz üslubunda olan əsas problematikaya və obrazlar sisteminə uyğun gəlməməsinin nəzərə alınması ilə tam dəniz əsəri deyil.

---

[36] Голдинг, У. Бог-скорпион, Клонк-клонк, Чрезвычайный посол/ У.Голдинг. – Санкт-Петербург: Азбука-классика, – 2004. – с.100

Klassik dəniz romanı üçün müəyyən hadisələr dəsti xarakterikdir ki, onlar mütləq hekayəyə daxil edilməlidirlər. Onların sırasına dəniz döyüşləri, gəminin düşmən tərəfindən ələ keçirilməsi, dəniz quldurları ilə toqquşmalar, gəminin qasırğaya müqavimət göstərməsi, gəmi qəzası, sərnişinlərin xilas edilməsi və s. aiddir. Lakin Qoldinqin dəniz trilogiyası isə "yalnız bir güllənin atıldığı, "*nə qasırğaların, nə gəmi qəzalarının, nə dənizin dibinə dalmaların, nə suda xilasetmələrin, nə düşmən görünüşü və səsinin, nə gəmi göyərtələrinin gurultusunun, nə qəhrəmanlıq, nə qənimətlər, nə qəhrəmancasına müdafiələr, nə cəsarətli hücumların*" olmadığı əsərdir[37].

Bir çox xüsusiyyətlərinə görə tərbiyə, səyahət və gündəlik romanlarına bənzərlik hiss olunsa da, bunların heç biri Qoldinqin yaratdığı trilogiyanın bütün mahiyyətini əks etdirmir. Özündə onların hər birinin cizgilərini əks etdirməklə "Dünyanın sonuna" tsikli tam olaraq onlardan hər hansı birinə aid edilə bilməz. Qoldinqin trilogiyası özlüyündə müxtəlif janrların sintezini, postmodern nəsri ruhunda yaradılan sosial-fəlsəfi təhkiyənin çoxsəviyyəliliyini əks etdirir. Bütün bunlarla bərabər Qoldinq qəhrəmanlarını gəminin təcrid edilmiş mühitinə salmaqla İngiltərə cəmiyyətinin problemlərini alleqorikləşmiş qəhrəmanların obrazı ilə simvolik şəkildə əks etdirir. Bütün bu xüsusiyyətlər "Dünyanın sonuna" tsiklində Qoldinq pritçaları ilə səsləşmə olduğunu göstərir.

**"Uilyam Qoldinqin roman-pritçalarının özünəməxsus xüsusiyyətləri"** adlanan **III fəsil** iki paraqrafdan ibarətdir. Birinci paraqraf ***"Uilyam Qoldinqin ilk roman-pritçalarının özünəməxsusluqları"*** adlanır. Bu paraqrafda Qoldinqin birinci romanı olan və ona dünya şöhrəti gətirmiş "Milçəklər kralı", ikinci romanı "Varislər" və "Oğru" Martin" romanları təhlil edilir.

Qoldinq "Milçəklər kralı"nı yaratmaq üçün R.M.Ballantaynın "Mərcan adası" (1858) romanının fabulasından istifadə etsə də "Milçəklər kralı"nda hadisələr tam fərqli inkişaf edir; dəniz quldurları və adamyeyənlər "tanrı xoflu ingilislər"in özləri olur. Uşaqlar əvvəlcə ağıl və qanunlar ilə həyatda qalmağa çalışsalar da, cəhdləri uğursuz olur. Macəra, faciəyə çevrilir: xəbərdarlıq alovu

---

[37]Голдинг, У. Ритуалы плавания /У.Голдинг. – Москва: АСТ Ермак, – 2005. – с.315.

yerinə dağıdıcı yanğın baş verir, donuz ovu ölümə gətirir və "Milçəklər kralı"na sitayiş başlayır.

Romanın xarici nəqletmə planı uşaqların şokedici amansızlığını təsvir etsə də, Qoldinqin pritçası bu hadisələrin fəlsəfi tezislərlə açıqlanmasını təklif edir. "Milçəklər kralı" uşaq problemlərini yox, insan təbiətini və cəmiyyətin qanunlarını araşdıran bir əsərdir.

Romanda müxtəlif rəmzlər (çanaq, eynək, alov, ölü paraşütçü), mifoloji və Bibliya allüziyaları (Velzevul, Dionis, Leviafan, Günahabatma haqqında Bibliya mifi, əzabkeş obrazı) uşaq oyunları və macəra süjeti yazıçının rasionalizmin və elmin xilasedici gücünə inamın özünü doğrultmaması və insanın başlanğıcdan təbiətən günahlı olması haqqında baxışlarının ifadəsinə xidmət edir[38].

İkinci romanında da Qoldinq ənənəsinə sadiq qalaraq başqa bir müəlliflə polemikaya girərək indiyə qədər qəbul edilmiş müəyyən fikir və ideyaları yenidən qiymətləndirərək, öz baxışını ortaya qoyur. "Varislər"də belə bir istinad nöqtəsi kimi Herbert Uellsin "Sivilizasiya tarixindən oçerklər"ində və "Qorxunc xalq" hekayəsində ifadə etdiyi fikirlər olur.

Uellsin "Tarixi oçerklər"i və "Qorxunc xalq" hekayəsi Qoldinqin "Varislər" romanının yaranması üçün təkan nöqtəsi olsa da, Qoldinqin sözügedən romanının problematikası ümumilikdə, Uellslə ədəbi polemikadan daha geniş və daha universal alındı. "Varislər" romanında Qoldinq təfəkkür və mənəvi inkişaf, insanın əxlaqi təkmilləşmə qabiliyyəti, sivilizasiyanın inkişafı və nəticədə yaranan fəlakətlər haqqında universal və qlobal düşüncələrini ifadə edir. Onun fikrincə, sivilizasiyalı olmaq heç də mütləq sivilizasiyalı hərəkətə zəmanət vermir. O, hətta bir az da irəli gedərək "Varislər" romanında göstərirdi ki, *"təfəkkür təkamülü və mənəvi inkişaf nəinki düzxətli deyil, əksinə təkamül mənəvi inkişafa tam əks mütənasibdir"*[39].

---

[38] Baxşiyeva G. Ş. Uilyam Qoldinqin "Milçəklər kralı" romanında insanın günaha batması mövzusu // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Heydər Əliyev və milli-mənəvi irsimiz" mövzusunda Respublika elmi konfransının materialları. – Bakı: Bakı Dövlət Universiteti, – 05 may, – 2023, – s.258.

[39] Baxşiyeva G. Ş. Uilyam Qoldinqin "Varislər" romanında təkamül və mənəvi inkişaf mövzusu // Azərbaycanşünaslığın aktual məsələləri [tədqiqat, elmi diskurs,

1956-cı ildə Qoldinqin sayca üçüncü romanı olan "Oğru Martin" çap olundu. Əsərin baş qəhrəmanı leytenant Kristofer Hedli Martin II Dünya müharibəsində alman sualtı qayığı tərəfindən məhv edilmiş ingilis hərbi dəniz gəmisinin yeganə sağ qalmış üzvü tənha bir adaya çıxaraq altı gün orada həyat uğrunda çətin mübarizə aparır. Bu mübarizə zamanı Qoldinqin verdiyi retrospeksiyalardan Martinin eqoist və acgöz, mənəvi-əxlaqi cəhətdən pozğun bir insan görürük. Nəhayət adada altı gün davam edən əzablara tab gətirə bilməyən Martin ağlını itirir və "qara şimşək" tərəfindən məhv edilir.

Qəhrəmanın ölümünü təsvir edən son fəslin ardınca gələn Qoldinqin "hiyləgər final" ənənəsinə uyğun epiloqdan məlum olur ki, baş qəhrəman hələ əsərin ikinci səhifəsində ölmüşdür və sonrakı bütün hadisələr qəhrəmanın ruhunun Ərafda təmizlənməsidir. Adadakı əzablar isə ölümə müqavimət göstərən qəhrəmanın təxəyyül aləminin məhsuludur.

Romanda baxış bucağının bu cür kəskin dəyişməsi Martinin mübarizəsinin absurdluğunu, gülünclüyünü də ortaya qoyur, çünki vəziyyət qəhrəmandan müqavimət göstərməyi deyil, olanları qəbul etməyi tələb edir. Martin, ölümün qəbulu ilə bağlı məntiqin əksinə gedir və ölümə qarşı olan müqavimət, eqonun – "qaranlıq mərkəzdən" imtinasını simvollaşdırır[40].

Uilyam Qoldinqin ilahi ədalət haqqında təsəvvürləri "Uilyam Qoldinqin "Oğru Martin romanında günah və cəza mövzusu" məqaləsində ətraflı tədqiq edilərək işıqlandırılmışdır və belə nəticəyə gəlinmişdir ki, Qoldinq xristianlığın təməl anlayışı hesab olunan cəza prinsipinə inanır və "*cəzanı bu qüvvənin harmoniyanı qorumaq məqsədinin özündən doğan bir qanunauyğunluq kimi qiymətləndirir*"[41].

---

beynəlmiləlləşmə]. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş XIV Beynəlxalq elmi konfransın materialları, – Bakı: – Bakı Slavyan Universiteti, – 04-05 may, – 2023, – s.335.

[40] Babb, H. S. The Novels of William Golding /H.S.Babb. – Ohio: The Ohio State University press, – 1970. – 210 p.

[41] Бахшиева, Г.Ш. Тема греха и наказания за грехи в романе Уильяма Голдинга «Воришка Мартин» // – Махачкала: Вестник Дагестанского государственного университета. Серия 2: Гуманитарные науки, – 2021. Том 36. № 4, – с.47.

***“Uilyam Qoldinqin son dövr yaradıcılığının roman-pritçaları”*** adlı ikinci paraqraf isə “Sərbəstdüşmə”, “Şpil” və “Piramida” romanlarının təhlilinə həsr edilmişdir.

“Oğru Martin” romanında yazıçı müasir individin əxlaqi deqradasiyası mövzusunu seçmişdisə “Sərbəstdüşmə” romanında bir qədər də irəli gedərək bu deqradasiyanın səbəblərini tədqiq edir. “Oğru Martin”dəki bir çox obraz və süjet xətləri, eləcə də bədii fəndlər “Sərbəstdüşmə”də davam etdirilir. Baş qəhrəman Sem Mauntcoyun Beatris Ayforla olan sevgi hekayəsi əsərin mərkəzi faciəsinə çevrilir. Romanın əsas xəttini isə xatirələr təşkil edir.

“Sərbəstdüşmə” romanı yazıçının fəlsəfi fikrinin təkamülü baxımından da diqqəti çəkir. Bu romanında yazıçı artıq individin həyatında cəmiyyətin də rolunu nəzərə alır, mövcudluq və varoluş problemləri üzərində düşünür. İlk dəfə Qoldinq əsərinin qəhrəmanını ada və ya qaya kimi qapalı məkanda təsvir etmir və onun daxilindəki şərə insani təbiətin bir hissəsi kimi baxmır.

Romanın ətraflı təhlili göstərir ki, “Sərbəstdüşmə” romanı həqiqət haqqında əsər deyildir. Bu roman Qoldinqin şüurun oyanması və hər bir insanın həqiqət axtarışının nə qədər mühüm olması haqqında görüşlərini əks etdirir.

Uilyam Qoldinqin 1964-cü ildə işıq üzü görən sayca beşinci romanı “Şpil”in əsasında məbədin təfəkkür və insanın daxilinə baxışının simvolu olması ideyası dayanır[42].

Əsərin qəhrəmanı şpilin inşasını özü üçün həyat məqsədinə çevirmiş Coslin nə qədər fikir və nəzərlərini səmada cəmləmək istəsə də, çirkab suları sanki onu aşağı baxmağa təkidlə məcbur edir. Beləcə Coslin baxışlarını və diqqətini çuxurda və quyuda cəmləmək məcburiyyətində qalır, əks təqdirdə bu qədər arzuladığı şpilin inşası mümkün olmayacaqdır. Əsərin bu motivi yüksək səmalara yönəlməzdən əvvəl insan ruhunun qaranlıq guşələrinin dərinliklərinin öyrənilməsinin vacibliyini əks etdirir.

Qoldinqin növbəti romanı “Piramida” (1967) romanında hadisələr müharibədən əvvəlki kiçik İngiltərə əyalət şəhərində baş verir. Romanın baş qəhrəmanı Oliver öz həyatının üç zaman

---

[42] Элиаде, М. Избранные сочинения: Очерки сравнительного религиоведения /М.Элиаде. – Москва: Ладомир, – 1999. – с.25

fraqmentini yada salır. Bu dövrlər də əsərin fəsillərinə uyğun gəlir. Beləliklə piramida başlığı təkcə sosial piramida iyerarxiyasını ifadə etməklə qalmır, əsərin strukturunda da fəal şəkildə piramidanın əsasını təşkil edən üçlük prinsipi təkrarlanır. İstər mətn kompozisiyasında, istərsə də münaqişələrin strukturunda və konfliktlərin qurulmasında üç rəqəminə tez-tez rast gəlirik.

Donmuş həyatın simvolu olan piramidanın ziddiyyətli cazibəsi isə ölümü təmsil etsə də, eyni zamanda zamanı dondurub bədəni saxlamaqla axirəti və həyata yenidən qayıtmağı nəzərdə tutmasındadır. U.Qoldinqin "Piramida" romanı, İngiltərə cəmiyyətinin sosial piramidasına qarşı yönəldilməkdən daha çox onun cəmiyyət üçün özlü və öldürücü ruhunu müəyyən edir.

***"Uilyam Qoldinq yaradıcılığında roman-pritça"*** mövzulu tədqiqat üzərində araşdırma əsasında aşağıdakı elmi **nəticə** və ümumiləşdirmələr əldə edilmişdir:

1. XX əsr ədəbiyyatında pritçanın "ikinci doğuluşu" bu dövr incəsənəti və ədəbiyyatının inkişaf xüsusiyyətləri ilə şərtlənmişdir. Yazıçıların pritça janrına müraciəti yeni forma axtarışları və bədii təsvirin şərti formalarına artan maraqla bağlıdır. İctimai və mənəvi həyatdakı sarsıntılar, elmi tərəqqidən doğan məyusluq və dinin funksiyasına yenidən baxış nəticəsində incəsənət həyatın mənası, Tanrının rolu, Xeyir və Şər kimi əbədi sualları araşdırmaq missiyasını üzərinə götürdü. Bu sualların pritçanın əsas janr xüsusiyyətləri ilə uyğunluğu, onun XX əsrdə aktual olmasının əsas səbəblərindən biri oldu.

2. Ədəbiyyatda pritçanın bir janr kimi klassik nümunəsi İncil pritçası hesab olunur. Klassik İncil pritçasında kontekst, fabula və təfsirin mütləq şəkildə mövcud olması əsas şərtdir. Eləcə də İncil pritçasında kiçik həcm, yığcamlıq, lakoniklik və açıq didaktiklik xüsusiyyətləri ortaya çıxır.

3. Pritça janrı zamanla dəyişərək mövcudluğunu qoruyur və hər dövrdə yeni xüsusiyyətlər qazanır. Orta əsrlərdə dini xarakter daşıyan pritça, İntibahda dünyəviləşir, Maarifçilikdə nəsihətçilik və fəlsəfi dərinlik artır, romantiklər isə onun ikiplanlı strukturunda mifologiya və Bibliya süjetlərinə yer verirlər.

4. XX əsrdə pritça dəyişikliklərə məruz qalsa da, ikiplanlılıq, fəlsəfilik və ideyanın əsaslandırılması kimi xüsusiyyətlərini qoruyur. Müəllif pritçalarında fabula daha detallı və ifadəli şəkildə təqdim olunur.

5. Müasir pritçalar ikiplanlılıq, ümumbəşəri mövzular, fəlsəfilik və əsərin fəlsəfi ideyanın sübutu kimi qurulması ilə seçilir. Onlara qısalıq, qapalı məkan, universal zaman, simvollar, folklor və mifoloji allüziyalar kimi xüsusiyyətlər də xasdır.

6. U.Qoldinqin yaradıcılığı müasir pritça anlayışının dəqiqləşdirilməsinə ehtiyac olduğunu göstərir. Onun ən məşhur əsəri "Milçəklər kralı" tədqiqatçılar tərəfindən pritça, mif, parabola, alleqoriya, fəlsəfi-alleqorik roman kimi müxtəlif janrlarla xarakterizə olunur. Lakin əksəriyyət Qoldinqin romanlarını pritça janrında qiymətləndirir və onun nəsrini XX əsr pritçasının "həqiqi ensiklopediyası" adlandırır.

7. Uilyam Qoldinq yaradıcılığını iki əsas dövrə ayırmaq olar: "Milçəklər kralı", "Varislər", "Şpil" kimi şah əsərlərin yaradılması dövrü və "Görünən zülmət", "Dəniz" trilogiyası və "Kağız adamlar"ın yazıldığı sükut dövrü. Birinci dövrə aid olan romanlar rəvayətin alleqorikliyi, simvolla dolu və ifadəli pritça xarakterli olub, nəsrin əsas mövzularını isə insanın günaha meylli təbiəti, onun öz ehtirasları ilə gərgin daxili mübarizəsi, texniki tərəqqinin ikili xarakteri təşkil edir. Pritça janrına meyillilik, simvollardan geniş istifadə, oxucunu oxuduğu haqqında düşünməyə vadar edən "şok sonluq" priyomu məhz bu dönəmdə formalaşmış özünəxas Qoldinq üslubunun ayrılmaz tərkib hissələri olur. 1979-1993-cü illəri əhatə edən ikinci mərhələdə yazılmış kitablarda müəllifin fokusu, insanın günahkar təbiəti ilə bağlı olan məsələlərdən insanın şəxsən etdiklərinə görə məsuliyyət, onun cəmiyyətlə münasibətləri, Avropa və İngiltərə cəmiyyətinin sinif bölgüsü məsələlərinə keçir. Artıq yaradıcılığın ilk dövrünə xas bədii forma olan pritçanın əlamətləri bir o qədər aydın deyil. Yeni romanlarda ifadə, intonasiya, ab-hava üslubunun dəyişilməsi aydın şəkildə görünür.

8. "Əqrəb-Tanrı" povesti və "Dəniz trilogiyası" Qoldinqin pritça janrına bağlılığını nümayiş etdirir. "Əqrəb-Tanrı"da yazıçı iki sivilizasiyanı müqayisə edir, "Varislər"də ifadə etdiyi sərt etik

mövqeni yumşaldır. “Dəniz trilogiyası” isə Qoldinqin sosial, fəlsəfi və dini mövzularını davam etdirir. Burada cəmiyyətin sinfi bölünməsi, riyakarlıq və texniki tərəqqinin dağıdıcı gücü kəskin vurğulanır. Janr baxımından trilogiya sosial-fəlsəfi təhkiyənin çoxsəviyyəliliyini və postmodern üslubu əks etdirir.

9. Qoldinqin ilk romanı “Milçəklər kralı” insanın qeyri-kamilliyi və günahkarlığı ideyasına əsaslanır. İngilis məktəblilərinin adadakı sərgüzəştləri fonunda əsərin mətni fəlsəfi və sosial-tarixi problemlərə toxunur. Mifoloji və Bibliya allüziyaları, simvolizm və ironik parodiyalar əsərin ideya dərinliyini artırır.

10. Yazıçı “Varislər” romanında da ideya və xarakterlərin, fabula və fəlsəfi sxemin ideal balansına nail olmuşdur. “Milçəklər kralı” insan təbiətinin günahkarlığını və elmin xilasedici gücünün şübhəli olduğunu göstərir. “Varislər”də neandertalların məhv edilməsi fonunda insan qəlbinin mürəkkəbliyi və ikili təbiəti vurğulanır. Burada tarixi inkişafın mənəvi keyfiyyətlərlə düz mütənasib olmaması diqqətə çatdırılır.

11. 1956-cı ilin romanı “Oğru Martin”, onun əvvəlki əsərlərindəki tanınan obraz və motivlərdən fərqlənir, əxlaqi dərs vermənin yeni üsullarını araşdırır. Yazıçı qəhrəmanın yaddaşı, zaman və məkan ardıcıllığının pozulması, fiziki hisslərin detallı təsviri kimi yeni priyomlardan istifadə edir.

İdeya baxımından Qoldinq yenə də insan təbiətini araşdırır, bu dəfə XX əsr insanının eqoizm və sui-istifadə prinsiplərinə əsaslanan təbiətini göstərir. Mifoloji və ədəbi allüziyalar romanın fəlsəfi dərinliyini artırır. Kristofer Martinin şəxsi faciəsi ümumbəşəri pritça səviyyəsinə yüksəlir, insanın müasir mənəvi cılızlığını və yırtıcı təbiətini ortaya qoyur.

12. U.Qoldinqin sayca dördüncü “Sərbəstdüşmə” romanı müxtəlif janr əlamətlərini özündə birləşdirir. Ancaq Qoldinq burada da pritça formasından imtina etməmişdir. Pritça forması “Sərbəstdüşmə”də əvvəlki romanlardan fərqlidir və daha çox müəllifin müasir fərdin dərin psixologiyasına müraciəti ilə bağlıdır. Bu isə əsərin fəlsəfi-mənəvi mövzusu istiqamətində hekayə planının ümumiləşdirilməsinə yol açır. Eləcə də əsərdə insanın öz daxilinə səyahəti motivləri, həqiqət axtarışı, özünü dərk etmə yolları haqqında

fikirlər mövcuddur. Qəhrəmanın düşüncəsində daim materialistik və səmavi, dünyəvi və müqəddəsin qarşıdurması baş verir. Bütün bunlar pritça üçün səciyyəvidir.

“Sərbəstdüşmə”də yazıçı insan həyatında cəmiyyətin rolunun əhəmiyyətinə də qiymət verir. “Sərbəstdüşmə” romanını əvvəlki roman-pritçalardan fərqləndirən xüsusiyyətlər isə təhkiyənin birinci şəxsin adından qurulması, nəqletmədə xronologiyanın aşkar şəkildə pozulması və sonda ənənəvi Qoldinq “tryukları”nın olmamasıdır.

13. U.Qoldinqin “Şpil” romanında yazıçı yenidən ilk iki romanına xas pritçanın bədii obraz tərəfinin əsərin əxlaqi-fəlsəfi ideyasına tabe edilməsi metoduna qayıdır. Özünü dərk etmə prosesi, öz daxili “Mən”inin qaranlıq tərəflərinin kəşfi, anlaşılmazlıq ideyası, insanın daxili korluğu, eləcə də insan təbiətinin ikili xisləti – “Şpil” romanında qoyulan bütün bu mövzular Qoldinq yaradıcılığı üçün ənənəvidir. Romanın tədqiqi zamanı əsərdə mərkəzi ixtilafı yaradan Yuxarı və Aşağı məkan obrazlarına xüsusi diqqət ayrılmışdır.

14. Qoldinqin “Piramida” romanında, pritça forması hadisələrin universallığını və ideya funksiyası daşıyan obrazların azlığını vurğulayır. Piramida strukturu əsərin hər hissəsinə uyğun üçlük prinsipini tətbiq edərək romana ümumbəşərilik və əlaqəlilik qazandırır.

***Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:***


1. Rzalı, G.Ş. Pritça janrının yaranması və inkişafı // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2017. №2, – s.50-56.
2. Rzalı, G.Ş. Uilyam Qoldinqin “Oğru Martin” romanında mifoloji və ədəbi allüziyalar // – Bakı: Bakı Dövlət Universiteti, Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2018. 3(107), – s.363-366.
3. Рзалы, Г.Ш. Генезис притчи как литературного жанра // Актуальные вопросы современной науки: материалы III международной научно-практической конференции, – Калининград: Издательство ЦПМ «Академия Бизнеса», – 16 января, – 2020, – с.200-204.

4. Рзалы, Г.Ш. Особенности системы символов в романе Уильяма Голдинга «Шпиль» // – Київ: Вчені записки ТНУ імені В.І.Вернадського, Серія: Філологія. Соціальні комунікації, – 2020. Том 31(70), № 4, – с.139-145.
5. Рзалы, Г.Ш. Мифологические аллюзии в романе Вильяма Голдинга «Воришка Мартин» // Новый Мир. Новый Язык. Новое Мышление, сборник материалов IV ежегодной международной научно-практической конференции, – Москва: Дипломатическая академия МИД России, – 2021, – с.663-667.
6. Бахшиева, Г.Ш. Тема греха и наказания за грехи в романе Уильяма Голдинга «Воришка Мартин» // – Махачкала: Вестник Дагестанского государственного университета. Серия 2: Гуманитарные науки, – 2021. Том 36, № 4, – с.41- 48.
7. Baxşiyeva, G.Ş. Uilyam Qoldinqin fəlsəfi baxışlarının "Sərbəstdüşmə" romanında əksi // – Bakı: AMEA, M.Füzuli adlına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2021. № 8, – s.387-396.
8. Baxşiyeva, G.Ş. Uilyam Qoldinqin "Piramida" romanında cəmiyyətin sosial piramidasının əksi // Bakı: AMEA, M.Füzuli adlına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2022. № 2, – s.293-301.
9. Baxşiyeva, G.Ş. Uilyam Qoldinqin "Şpil" romanında simvolik struktur // Bakı: AMEA, M.Füzuli adlına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2022. № 4, – s.250-260.
10. Baxşiyeva, G.Ş. Uilyam Qoldinqin "Milçəklər kralı" romanında mif və simvol // Qloballaşma dövründə Türk dünyası: çağırışlar, perspektivlər Beynəlxalq tələbə elmi konfransının materialları, – Bakı: Xəzər Universiteti nəşriyyatı, – 26-27 may, – 2022, – II cild. – s.192-197
11. Baxşiyeva, G.Ş. Uilyam Qoldinqin "Varislər" romanında təkamül və mənəvi inkişaf mövzusu // Azərbaycanşünaslığın aktual məsələləri (tədqiqat, elmi diskurs, beynəlmiləlləşmə). Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş XIV Beynəlxalq elmi konfransın materialları, – Bakı: Bakı Slavyan Universiteti, – 04-05 may, – 2023, – s.333-335.

12. Baxşiyeva, G.Ş. Uilyam Qoldinqin "Milçəklər kralı" romanında insanın günaha batması mövzusu // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Heydər Əliyev və milli-mənəvi irsimiz” mövzusunda Respublika elmi konfransının materialları. – Bakı: Bakı Dövlət Universiteti, – 05 may, – 2023, – s.257-261.

Dissertasiyanın müdafiəsi 19 iyun 2025-ci il tarixində saat 12.00 Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.05.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 42090 işarə

Tiraj: 100 nüsxə